"Aşıq Pəri" məclisi 1984-cü ildə şairə Narınc Xatunun təşəbbüsü ilə yaradılmışdır. Məclisin ilk yığıncağı Yazıçılar Birliyinin "Natəvan" adına klubunda keçirilmiş, xalq yazıçısı, bütün ömrünü folklorumuzun təbliğinə həsr eləmiş Əzizə xanım Cəfərzadənin xeyir-duasını almış və onun təklifi ilə Cəbrayıl rayonu Maralyan kəndində yaşayıb-yaratmış aşıq Pərinin şərəfinə adlandırılmışdır. Xalq yazıçısı İsmayıl Şıxlının, şair Hüseyn Arifin (o dövrkü aşıqlar birliyinin sədri), xalq rəssamı Maral xanım Rəhmanzadənin, bəstəkar Sevda xanım İbrahimovanın və başqa tanınmış elm və incəsənət xadimlərimizin tərəfindən böyük məhəbbətlə qarşılanmışdır. Məclisin inkişaf yolu ilə bağlı onun hazırkı rəhbəri Gülarə xanım Azaflı deyir:

-Bu gün "Aşıq Pəri" məclisi 20 illik bir tarixə malikdir. Yaranan gündən 2002-ci ilədək bizə ustadımız Narınc Xatun rəhbərlik edib.

Məclisin ilk üzvlərindən olmuş aşıq Ulduz, aşıq Solmaz Kosayeva, şairə Səadət Buta sənətdə öz sözünü demiş sənətkarlarımızdandır ki, indi onlar özləri müstəqil məclislər yaradıblar. Səadət Buta və Solmaz xanım milli televiziyada "Elin gözü - sözün düzü" adlı proqrama, aşıq Ulduz isə "Ulduz" birliyi müstəqil saz-söz məclisinə rəhbərlik edirlər. Məclisin ilk üzvlərindən olan Dilarə xanım Azaflı respublikamızın müxtəlif bölgələrindən məclisdə iştirak etmək üçün gələn qadın aşıqlarımıza öz evində şərait yaradar, məşqlərinə kömək edərdi.

Məclislərimiz Azərbaycanın müxtəlif yerlərində - Qazaxda Pakizə Musagöylünün, Göyçədə Tərlan Göyçəlinin, Gürcüstanda Səadət Butanın, Gülnigar Rəhimlinin, Gəncədə mənim, atam Azaflı Mikayılın, Bərdədə Bəsti Bərdəlinin, Laçında Aybəniz Laçınlının evinə yığışar, məclislər keçirərdik. Məclislərimiz əsasən paytaxtda keçirildiyindən 1994-cü ildə Bakıya köçdüm.

**- Necə oldu ki, Narınc Xatundan sonra məclisi siz idarə etdiniz?**

- Narınc Xatun özündən sonra məclisi idarə etməyi Səadət Butaya təklif elədi. Borçalı elindən olan Səadət xanımla Narınc Xatunun hələ 80-ci illərin əvvəllərindən məktub vasitəsi ilə əlaqələri olub. Narınc Xatun Gürcüstana qonaq gedəndə Səadət xanım onu aşıq Sona ilə tanış eləyib. 70 yaşlı Aşıq Sona elə bir zarıncı çalıb - oxuyub ki, onu eşidən Narınc Xatun qadın aşıqlarımızdan ibarət bir məclis yaratmaq qərarına gəlib. Bu işdə Səadət xanım ona yaxından kömək eləyib. Odur ki, hər birimizdən artıq Səadət xanımın buna mənəvi haqqı var







# Etimadı doğrultmaq naminə

idi. Səadət xanım məclisi idarə etməyə nədənsə razı olmadı. Nəhayət, hər ikisi məsləhətləşib məclisi idarə etməyi mənə tapşırmışdılar. Narınc Xatun məclisi mənə tapşıranda qeypr-ixtiyarı kövrəldi, əzizində ayrılmış kimi "uçüncü övladımı sənə etibar eləyirəm", söylədi.

**- Gülarə xanım, məclisə sonradan gələn, bilavasitə məclisin yetirməsi olan qızlarımızdan hansıların adlarını çəkə bilərsiniz?**

- Cığatel İsaqızı, Lətifə Çeşməli, Rəfiqə Göyçəli, şairlərdən Zöhrə Xəlili, Pərvanə Zəngəzurlu, Pərvanə Şəm, aşıq Pəri Möhübbətqızı və başqaları ümidlərimizi ləyaqətlə doğruldur.

Məclisimizdə Mədəniyyət Nazirliyin xətti ilə aşıq Pərinin 180, Narınc Xatunun 70, Azaflı Mikayılın 80, aşıq Əkbər Cəfərovun 70, dədə Ələsgərin xatirə gecəsinin keçirilməsi yüksək səviyyədə təşkil olunmuşdur. Qayğı və köməyini əsirgəmədiyinə görə mədəniyyət nazirimiz Polad Bülbüloğluna, onun müavini Ədalət Vəliyevə məclis adından dərin təşəkkürümüzü bildiririk.

Məclis üzvlərindən mənim, aşıq Zülfiyyənin, Telli Borçalının, Lətifə Çeşməlinin, Kəmalə Qubadlının audio-vidio kassetləri və diskləri buraxılıb. Şairə Səadət Buta Gürcüstanın "Şərəf" orderi ilə təltif olunub.

Aşıq Pəri məclisinin 5 illik, 10 illik, 15 illik yubileyləri Mədəniyyət Nazirliyi tərəfindən qeyd olunub. Bununla belə hələ də məclis qeyri-rəsmi təşkilat kimi fəaliyyət göstərir. Qızlarımız ayrı - ayrılıqda xarici ölkələrdə qastrol səfərlərində olublar. Arzumuz budur ki, ustadımız Narınc Xatun başqa olmaqla bütün qızlarımızla birgə xarici dövlətlərdə sazımızı- sözümüzü, bir sözlə, folklorumuzu təbliğ edək.

**- Narınc Xatunun atanızın haqq "buta" sı olması sizə necə təsir bağışlayır?**

- Hər şeydən əvvəl burada bir müqəddəslik görürəm. Narınc Xatun namə yazıb atamı söz meydanına çağıranda anam təkidlə xahiş etdi ki, səni qadın - haqq "buta" n çağırırsa getməlisən. Rəhmətlik Əzizə xanım Cəfərzadənin anamın haqqında "Bu qadının necə də böyük ürəyi var", söylədiyi indi də yadımdadır.

**- Mümkünsə onların deyişmələrindən bir neçə bənd söyləyin.**

**- Narınc Xatun:**

*Gəl nəğməyə dönək telin dəmində.*
*Ötək xanə-xanə zili, bəmində.*
*Çox ariflər gördüm söz aləmində,*
*Hər saz tutan olmaz Kənan, Azaflı.*

**-Azaflı Mikayıl:**

*Azaflı haqq gəzər bir sərvər kimi,*
*Sərrafdı, zər seçər düz zərgər kimi.*
*Qoç Koroğlu kimi, Ələsgər kimi,*
*Çıxaram meydana, ay Narınc Xatun.*

Narınc Xatun böyük şəxsiyyətdir. Atam ona şerlərində hərdən "ay Muğan qızı" deyə müraciət edərdi. Həmişə çalışıram ki, atam Azaflı Mikayılın ənənəsini yaşadım, Narınc Xatunun mənə olan etibarını doğruldum. Azərbaycan xalqının qarşısında olan borcumu yerinə yetirməyimdə, Məclisin ənənələrinin yaşamasında nəyə nail oluramsa ilk növbədə Narınc Xatunun və atamın ruhu qarşısında baş əyirəm.

*Fazilə Mustafayeva*